# Bakıda Beynəlxalq Kitab Sərgi-Yarmarkası açıldı

## Yarmarkada 100 yerli, 30 xarici təşkilat iştirak edir

**Dünən IV Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasına həsr olunmuş mətbuat konfransı keçirilib. Konfransda 3 gün davam edəcək tədbir çərçivəsində keçiriləcək görüşlər, *aparılacaq müzakirələr, təqdimatlar barədə geniş məlumat verilib.***

AZƏRTAC xəbər verir ki, Mədəniyyət və Turizm Nazirliyinin kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin baş məsləhətçisi Elbəy Əli dünən start götürən sərginin Azərbaycanda keçirilməsini kitaba və kitab nəşriyyatına dövlətin dəstəyinin nəticəsi kimi qiymətləndirib. O bildirib ki, dünyanın ən zəngin və ən böyük kitabxanalarının iştirak edəcəyi sərgidə bir sıra böyük kitab nəşriyyatları da təmsil olunacaq.




Diqqətə çatdırılıb ki, sərgidə istənilən qurum öz məhsullarının yayımını sərbəst şəkildə təşkil edə bilər.

Qeyd edilib ki, əvvəlki sərgilərdən fərqli olaraq bu dəfə iştirak edən bütün nəşriyyatlara tam sərbəst proqramlarla çıxış etmək imkanı verilib. Belə ki, bütün sərgi-yarmarkanın iştirakçıları istədikləri vaxt imza mərasimləri, yazıçılarla görüş təşkil edə bilərlər.